UOT 373.3/5.

*Şəhla İsmayıl qızı Ələkbərova*
*Bakı şəhəri Elçin Qaranzadə adına 270 nömrəli tam orta məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi*

# MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

*Шахла Исмаил гызы Алекперова*
*учитель азербайджанского языка и литературы*
*средняя школа № 270 им. Эльчин Гаранзаде гор. Баку*

# ВЛИЯНИЕ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

*Shahla Ismayil Alakparova*
*teacher of Azerbaijani language and literature at*
*full secondary school № 270 named after Elchin Garanzade of Baku*

# IMPACT OF TEACHER'S PEDAGOGICAL ACTIVITY ON THE QUALİTY OF EDUCATION

**Xülasə:** Təhsil sahəsində aktuallığı ilə özünə xüsusi yer ayıran problemlərdən biri də təhsilin keyfiyyəti və bu keyfiyyətə təsir edən amillərdən biri kimi müəllimin keyfiyyət göstəriciləri məsələsidir. Müəllimin keyfiyyət göstəricisi, onun fəaliyyətindəki istiqamətlər, eləcə də xüsusiyyətləri məqalədə öz əksini tapmışdır.
***Açar sözlər:*** *təhsildə keyfiyyət, təhsil islahatları, müəllim peşəsi, yaxşı müəllim, müəllim-şagird münasibətləri*

**Резюме:** Одной из проблем, которые занимают особое место в области образования, является качество образования и показатели качества учителей как один из факторов, влияющих на качество образования. В статье отражены показатель качества учителя, его тенденции и особенности.
***Ключевые слова:*** *качество образования, реформы образования, профессия педагога, лучший учитель, отношения учителя и учеников*

**Summary:** One of the problems that pose a special place in the field of education is the quality of education, as one of the factors affecting this quality and the issue of teacher's quality indicators. The article reflects the teacher's quality indicators, directions of its activity as well as its features.
***Key words:*** *the quality of education, education reforms, teacher profession, good teacher, müəllim-şagird attitudes*

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı naminə dövlətin bütün sahələrində misilsiz xidmətləri olmuşdur. Bu sahələrdən ən birincisi təhsildir. Çünki, bütün sahələrin əsasında, inkişafında təhsil, müəllim durur.

Bildiyimiz kimi, müəllim öyrədən, tərbiyə edən və inkişaf etdirən bir şəxsdir. Bu şəxs şəxsiyyətin yetişməsində, onun cəmiyyətə hazırlanmasında əsaslı rol oynayır. Müəllim peşəsi digər peşələrdən özünəməxsusluğu ilə seçilir. Çünki bu peşənin nümayəndələri gələcəkdə özünə müxtəlif peşələr seçəcək nəslin yetişməsinə təsir edir, onu mühitə, gələcəyə, cəmiyyətə hazırlayır.

Bu gün aktuallığı ilə özünə xüsusi yer ayıran problemlərdən biri də təhsilin keyfiyyəti və bu keyfiyyətə təsir edən amillərdən biri kimi müəllimin keyfiyyət göstəriciləri məsələsidir.

Müəllim peşəsinə elmi-pedaqoji yanaşmalarda müxtəlif cür tərif verilsə də, həmçinin münasibətlər bildirilsə də cəmiyyətdə də bu peşənin cavabdehlərinə müxtəlif tələblərlə yanaşmalar var. Mövcud cəmiyyət müəllimdən çox şey

gözləyir və bu gözləntiləri nəticələrlə əlaqələndirir. Nəticədə yaxşı şagird yaxşı müəllimin məhsulu kimi dəyərləndirilir. Yaxşı müəllim kimdir? O, hansı göstəricisinə görə yaxşı hesab edilə bilər?

Müəllimin keyfiyyət göstəricisini araşdırarkən onun fəaliyyətindəki istiqamətləri mütləq nəzərdə saxlanılmalıdır. Müəllimin hərəkətləri nümunəvi, dinamik olmalıdır. Bununla yanaşı, o, münasibətlərdə səmimi olmalıdır. Şagird onun üçün "canlı əşya" hesab edilməməli, o da bir cəmiyyətə hazırlanan şəxsiyyət kimi görülməlidir. Sağlam mühit yaratmaqla sinifdə şagirdin özünü rahat hiss etməsini təmin etməlidir. Bəzən müəllim çalışır ki, şagird onun xüsusiyyətlərinə uyğunlaşsın. Əslində, müəllim şagirdlərin xüsusiyyət və xarakterlərinə uyğunlaşmalı, onlarla ortaq bir ünsiyyət xətti tapmalıdır ki, dərs uğurlu və səmərəli alınsın. Müəllimin həddindən artıq temperament nümayiş etdirməsi və ya aşağı temperamentə malik olması sinifin ümumi atmosferinə təsir etmiş olar. Ona görə də dərs zamanı müəllim müəyyən aktyorluq bacarığı nümayiş etdirməli, yorucu olmayan bir dərs mühiti yaratmalıdır. Keyfiyyətə təsir edən amillərdən biri də mühitdir. Yorucu mühitdə dərs şagirdlərin gərginləşməsinə, müəllimin idarəçiliyinin itirilməsinə səbəb ola bilər. Ona görə də müəllim mütləq fəallaşmanı nəzərdən qaçırmamalı, lazımı məqamlarda fəallaşmalar etməlidir.

Təhsilin keyfiyyətində yaxşı müəllimin rolu mühümdür. Yaxşı müəllim bir çox xüsusiyyətlərə malik olmalıdır ki, bunlara aiddir: səbirlilik, qərəzsizlik, demokratik mühütə meyillilik, tolerantlıq, çevik düşüncə, situasiyaya görə çevik çıxış yolları tapmaq, bərabər imkanların yaradılması, qiymətləndirmə bacarığı, intellektuallıq, fasilitatorluq və s.

Özünü inkişafa meyilli müəllim bu kimi xüsusiyyətlərə malik olmaqla təlim mühitində sağlam rəqabətə əsaslanan dərs keçməli, səmərəli strategiyadan istifadə etməklə şagirdlərin bilik və bacarıqlarını inkişaf etdirməlidir. Təhsilin inkişafında müəllim təkcə özünüinkişafla məşğul olmamalı, məktəbin inkişafı ilə bağlı işlərə də cəlb olunmalı, məktəblə valideyn əlaqələrinin qurulmasına, müəllim-şagird-valideyn, eləcə də məktəb əməkdaşlığına can atmalı, bunun üçün müəyyən işlər görməlidir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün, ilk növbədə, məktəbdə bilik və bacarıqlara, eləcə də pedaqoji səriştəyə malik olan müəllimin olması və yetişməsi əsasdır. Təlim-tərbiyə mühitini formalaşdıran müəllim Təhsil Qanunu ilə yanaşı müəllimə lazım olan bir çox sualların cavabını bilməlidir ki, bunlara aşağıdakılar daxildir:

- Dövlətin Təhsil siyasətini əks etdirən sənədlərlə tanışlığınız varmı?
- **Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları** (kurikulumları) sənədi haqqında məlumatlınız varmı?
- Sağlam təlim mühitinin yaradılması üçün nə edirsiniz?
- Kurikulumların tətbiqi ilə bağlı hansı məktəbdə hansı problemlər yaranır və bu problemləri necə aradan qaldırırsınız?
- Fənn kurikulumlarının tətbiqi zamanı təlimdə müasir texniki vasitələrdən necə istifadə edirsiniz?
- Fənniniz üzrə hansı məzmun standartlarının reallaşdırılması zamanı çətinliklə üzləşirsiniz?
- Sizcə təqdim edilən resurslar standartların reallaşmasına imkan verirmi?
- Şagirdin qiymətləndirilməsi zamanı qiymətləndirmə vasitəsini nəyə əsasən seçirsiniz?
- Qiymətləndirmə standartlarından nə vaxt istifadə edirsiniz?
- Təlim prosesi zamanı yeni pedaqoji texnologiyalardan istifadə şagirdlərin idrak fəallığına necə təsir edir?
- Perspektiv planlaşdırmanı tərtib edərkən mövzuları nəyə əsasən müəyyənləşdirirsiniz?
- Perspektiv plan tərtib edərkən mövzulara ayrılan saatları necə müəyyən edirsiniz?
- Dərsdə inteqrativliyi necə həyata keçirirsiniz?
- Təlim tapşırıqları zamanı resurs kimi hansı əlavə ədəbiyyatlardan istifadə edirsiniz?
- Formativ qiymətləndirmə zamanı müəyyən etdiyiniz problemləri necə aradan qaldırırsınız?
- Summativ qiymətləndirmə nəyə əsasən aparılır?
- Dərsin məqsədini nəyə əsasən müəyyən edirsiniz?
- Valideynlərlə əməkdaşlığı hansı formada həyata keçirirsiniz?





- Şagirdləri stimullaşdırmaq üçün hansı tədbirləri həyata keçirirsiniz?
- Tədris prosesi zamanı hansı üsul və vasitələrdən daha çox istifadə edirsiniz?
- Dərsinizi necə qurursunuz və dərsin hansı mərhələsində çətinliklə üzləşirsiniz?
- Müasir dərs hansı mərhələlərdən ibarət olur?
- Motivasiya nədir və onu qurmaqda məqsəd nədən ibarətdir?
- Təlimdə geri qalan şagirdlərlə işi necə qurursunuz?
- Təlim ekskursiyalarını nəyə əsasən planlaşdırırsınız?
- Dərs prosesi zamanı şagirdlərlə məsuliyyəti necə bölüşürsünüz?
- Sağlam təlim mühitinin yaradılması üçün nə edirsiniz?
- Sizin əməyiniz məktəb rəhbərliyi tərəfindən stimullaşdırılırmı?
- Məktəbin həyatında öz rolunuzu nədə görürsünüz?

Qeyd olunan suallar əsasında hər bir müəllim öz üzərində işləyərsə, yetişməkdə olan gələcək nəslin inkişafına yol açmış olar. Müəllim istər müasir dövrdə, istərsə də əvvəllər həmişə təhsilin keyfiyyətinin yüksəldilməsində əsas rola malik olmuşdur. Millətə, vətənə, dövlətə layiqli vətəndaş yetişdirmək təhsilin keyfiyyət göstəricilərindən biridir ki, bu şərəfli işin ən ağır yüklü hissəsi də müəllimin üzərinə düşür.

Nəticə olaraq göstəririk ki, müəllimlik peşəsinə yiyələnmək özü-özlüyündə həyatdır, həyatda özünə mövqe qazanmaqdır. Cəmiyyətin inkişafında müəllimlik peşəsi əsasdır, həyata şüurlu münasibət göstərməkdir. Müəllim üçün onun sənəti əzizdir. Heç bir müəllim bu sənətdən doymur. Müəllim sənətini sevərək yaşadır, inkişaf etdirir. Ulu Öndər Heydər Əliyev öz çıxışlarının birində söyləmişdir: "Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır".

**Problemin aktuallığı.** Təhsilin keyfiyyətinin göstəricilərindən biri olan müəllimin fəaliyyəti, onun üzərinə düşən vəzifələr, yaxşı müəllimin xüsusiyyətləri, şagird-müəllim-valideyn münasibətləri, dərsin keyfiyyəti, müəllimin özünü inkişafı və s. hal-hazırda təhsil siyasətinin, eləcə də cəmiyyətin ən aktual problemlərindən biridir.

**Problemin elmi yeniliyi.** Təhsilin keyfiyyətinin yüksəldilməsində müəllim fəaliyyətinin rolu sistemli şəkildə araşdırılaraq öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə öz əksini tapan müəllim fəaliyyətinin göstəriciləri, eləcə də yaxşı müəllim olmaq üçün nələri bilmək və bacarmaq kimi məsələlər öz əksini tapdığı üçün bu problem gənc müəllimlər və tələbələr üçün vasitə ola bilər.

**Ədəbiyyat:**


1. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/437/
2. Əliyev H. Pedaqoji ustalığın əsaslan. (Dərs vəsaiti). Bakı: ADPU, 1999.
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991
4. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı, 2012.
5. Müəllim hazırlığına yeni yanaşmaları. Bakı, 2012.
6. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Bakı, 2012.
7. Сластенин В.А., Исаев И.Ф., Шиянов Е.Н. Педагогика. М.: Академа, 2000.


**E-mail:** Shehla270@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **A. Bəkirova,**
*ped.ü.fəls.dok.* **K. Mahmudova**
**Redaksiyaya daxil olub:** 14.12.2018.